# Turizmin inkişafı ilə bağlı yeni marşrutlar yaradılır

***Azərbaycanda mövcud olan turizm marşrutları yenilənməkdə davam edir. Pandemiya ilə bağlı karantin tədbirlərinin yumşaldılmasından sonra təklif olunan turizm marşrutları üzrə aparılan səmərəli fəaliyyət nəticəsində yerli və xarici turistlərin səfərləri intensiv xarakter almağa başlayıb.***

Mütəxəssislərin fikrinə görə, mövcud turizm marşrutları ilə yanaşı yenilərinin də yaradılması vacibdir. Turistlər, adətən, ölkənin görkəmli adamlarının ev muzeylərinə böyük maraq göstərirlər. Bakıda və ölkəmizin ayrı-ayrı regionlarında görkəmli insanların ev muzeyləri, həyat və yaradıcılıqları ilə bağlı məkanlar çoxdur. Həmin yerləri müəyyənləşdirmək və onlara uyğun turist marşrutları təşkil etmək mümkündür.

Dünya turizmində məşhur tarixi şəxsiyyətlərin, yazıçı və şairlərin, elm adamlarının, görkəmli hərb xadimlərinin, tanınmış idmançıların populyarlığı turizm marşrutları yaratmaqdan ötrü çoxdan arqumentə çevrilib. Bu marşrutlar həm yerli, həm də əcnəbi turistlər hesabına özünü doğruldacaq. Məsələn, Səmərqənddə Əmir Teymurun və yaxınlarının uyuduğu mavzoleyi, Reqistan meydanındakı mədrəsələri, Bibi-Xanım mavzoleyini, Şaxi-Zinda mavzoley kompleksini, Uluqbəyin rəsədxanasını ziyarət etmək üçün dünyanın hər yerindən Özbəkistana turistlər axışır. Londonda Şekspir, Praqada Frans Kafka, Budapeştdə Şandor Petefi, Sankt-Peterburqda Dostoyevski, Moskvada Puşkin, Sergey Yesenin, Pyatiqorskda Lermontov və digər görkəmli şəxsiyyətlərin xatirə muzeylərini də hər il milyonlarla turist ziyarət edir.

Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinin, hərb xadimlərinin, tanınmış ədəbiyyat adamlarının, musiqiçilərinin ev və xatirə muzeylərinin olduğunu nəzərə alsaq, onda belə bir marşrutun inkişafının ölkə turizmi üçün də səciyyəvi olduğunu düşünmək olar.

Bülbülün memorial muzeyinin direktoru Fərqanə Cabbarova bildirib ki, muzeyə ara-sıra əcnəbi turistlər gəlirdi. Pandemiyadan əvvəl turizm şirkətləri ilə müqavilələr bağlayırdıq. Şirkətlər də gələn turistlərin muzeyə səfərlərini təşkil edirdilər. Hazırda belə səfərlər yoxdur. Ancaq yenə də təşkil olunsa, yaxşı olar. Bu, həm görkəmli şəxsiyyətləri tanıdar, həm də turistlərə ölkəmizə marağını artırar. Belə marşrutları turizm şirkətləri təşkil etməlidir.

Ancaq tarixi şəxsiyyətlərlə bağlı marşrutların yaradılması üçün son zamanlar təkliflər olunur. Azərbaycan Turizm Bürosu da belə marşrutların təşkilində maraqlıdır. Əldə etdiyimiz məlumata görə hələlik hazırlanan tematik marşrut postsovet məkanının şəxsiyyətlərini əhatə edəcək.

Azərbaycan Turizm Bürosunun turizm məhsulunun inkişafı şöbəsinin müdiri Şərifə Həsənovanın fikrincə, məşhur opera müğənnisi Müslüm Maqomayev və dünya şöhrətli violonçel ustası Mstislav Rostropoviçin həyat və yaradıcılığı ilə bağlı tematik marşrutlar hazırlanır. Bu marşrutlar postsovet bazarlarına hesablanıb. Çünki bu böyük sənətkarların həyat və yaradıcılığı bu məkanda daha çox tanınır. Hesab edirik ki, həmin marşrutlar sənətsevər turistlərin diqqətini cəlb edəcək.



M.Maqomayev və M.Rostropoviçin sorağı ilə ölkəmizə gələn turistlər marşrut çərçivəsində hər iki sənətkarın yaşadıqları evlərə baş çəkəcək, onlarla bağlı sənədli filmləri izləyəcək, əsərlərindən ibarət konsertləri dinləyəcək, abidələrini ziyarət edəcək, onların haqqında geniş məlumat alacaq və eşitmədikləri faktlarla tanış olacaqlar.

Təbii ki, belə bir marşrutu genişləndirib yaxın-uzaq xariclə əlaqəsi olan digər görkəmli musiqi xadimlərinə, sərkərdələrə, tanınmış elm, ədəbiyyat və incəsənət adamlarına da şamil etmək olar. Məsələn, paytaxtda və ölkəmizin ayrı-ayrı regionlarında görkəmli insanların ev muzeyləri, həyat və yaradıcılıqları ilə bağlı məkanlar çoxdur. Həmin yerləri müəyyənləşdirmək və onlara uyğun turizm marşrutları təşkil etmək mümkündür.

Ölkənin turizm bazarının təkcə rus turistlərdən ibarət olmadığını düşünüb, arealı daha da genişləndirmək, bütün postsovet məkanını, gələcəkdə isə yaxın – uzaq ölkələri əhatə etmək olar. Bu, həm ölkəmizə marağı artırar, həm də görkəmli şəxsiyyətlərimiz haqqında daha geniş məlumat verilməsində əhəmiyyətli olar.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .-2022.- 11 fevral.- S.7.